Professor Ə.Abdinov optoelektro-

# Milli pedaqogika elminin memarı



Ölkəmizdə milli pedaqogikanın memarı kimi tanınan ustad pedaqoq Nurəddin Mustafa oğlu Kazımovun bu il doxsan yaşı tamam olur. Nurəddin müəllim ağrı-əzablı uşaqlıq çağlarından ta müdriklik zirvəsinə qədəm qoyana qədər çətin, lakin şərəfli bir yol keçmişdir.

Nurəddin Kazımovu tanıyanlar çox yaxşı bilirlər ki, onun xarakterində heç vaxt təbəddülatlar, tərəddüdlər olmayıb, sözü ilə əməli daim vəhdət təşkil edib. Təbiətində əsl insani keyfiyyətlər - sadəlik, təvazökarlıq, səmimiliklə yanaşı, yeri gələndə sərt "dəmir intizam", prinsipiallıq, dediyindən dönməmək kimi cəhətlər də var. Odur ki, çox vaxt onun bu xüsusiyyətləri çoxlarını razı sala bilmir, xasiyyətinin "ağır" olmasından giley-güzar edənlər də tapılır. Amma onunla yaxından ünsiyyət quranlar yaxşı bilirlər ki, Nurəddin müəllim müdrik bir şəxsiyyət, bütöv, monolit münasibətə bağlı insandır. Ömrü boyu həyatını saflıq və halallıq meyarı üzərində quran bu şəxsiyyətin vicdanlı alim mövqeyi, ustad müəllim bacarığı, dərin tədqiqatçılıq səriştəsi, ziyalı zəkası, aydın məntiqi təfəkkür qabiliyyəti və digər bu kimi mənəvi fəzilətlər daşıyıcısı olması onu həmkarlarına çox qədirbilən, humanist insan kimi tanıtmışdır.

Onun elmi-pedaqoji yaradıcılıq yolunda qazandığı nailiyyətlər yalnız və yalnız gərgin əməyin, məhsuldar fəaliyyətin, yuxusuz gecələrin, sarsılmaz iradi keyfiyyətlərin, mətin və dözümlü xarakter bütövlüyünün nəticəsi olaraq, ona pedaqoji və elmi ictimaiyyət arasında geniş nüfuz qazandırmışdır.

Nurəddin müəllimin ömür-gün yolunun qəlblərdə iz salan xatirələri haqqında həmkarlarının rəylərini oxuyanda sevinirsən. İnsana, onun xeyirxah əməllərinə verilən yüksək dəyər həyatsevərliyə, əqidə və inam eşqinə tuşlanan nəcib fikir və təəssüratlardan dərin bir zövq alırsan. Həmin aforistik deyimlərdən bir neçəsini xatırlamaqla güman edirik ki, bu ülvi şəxsiyyətin xarakterində təzahür edən nəcib və həssas keyfiyyətlərdən daha dərindən hali olmaq mümkündür.

ADU-nun rektoru vəzifəsini icra edən professor Dünyamin Yunusov: *"Nurəddin müəllim Azərbaycan ziyalılar ordusunun sayılıb-seçilən və sevilən alimlərindəndir"*.

Azərbaycan Təhsil Şurasının sədri, pedaqoji elmlər doktoru, professor Əjdər Ağayev: *"Alimin yaradıcılığı ilə şəxsiyyəti vəhdət təşkil etdikdə, bütöv, özünəməxsus xakterə malik olduğu görünəndə o, daha əzəmətli olur. Nurəddin Kazımov məhz belə bir insandır"*.

AMEA-nın vitse-prezidenti, akademik, millət vəkili İsa Həbibbəyli: *"Görkəmli elm xadimi Nurəddin müəllimin əsərləri kimi, xarakteri də bənzərsizdir. Bu cəhətdən onu kimsə ilə müqayisə etmək olmaz, obyektivlik, halallıq, bir qədər də dönməzlik, prinsipiallıq, özünə inam, yalnız savadına, qabiliyyətinə inandığı insanlara qayğıkeş münasibət bəsləmək Nurəddin müəllimin xarakterik cizgiləridir. O, bütöv və bənzərsiz şəxsiyyətdir"*.

Deyilənlər də bir daha təsdiq edir ki, professor Nurəddin Kazımov Azərbaycan pedaqoji fikrinin görkəmli nümayəndələrindən biri olub, pedaqoji ictimayyətimizin yaşlı və orta nəslinin yaxşı tanıdığı, hər birinin qəlbində iz buraxdığı böyük alimdir.

Onun mənəvi dünyasında "yaxşı insan" formalaşdırmaq konsepsiyası, tərbiyə işində mərhələlik nəzəriyyəsindən istifadə təcrübələrinə aid monumental baxışlar sistemi - milli və ümumbəşəri dəyərlər əsasında, cəmiyyət prinsiplərini ehtiva edən zəmində öz əksini tapdığından yaradıcılığını da məhz bu iki zəngin metodologiya üzrə ümumiləşdirməyə daha çox cəhd etməsi, ilk dəfə olaraq milli pedaqogikanın yaranması yolunda böyük əmək sərf etməsi ilə bağlı olmuşdur.

Xüsusən, milli pedaqogikaya aid nəzəriyyə yaratmaq sahəsində müstəsna əməyi bu gün də pedaqoji aləmin dəyər verdiyi misilsiz töhfədir.

Milli pedaqogika ideyasının banisi kimi, o bu yolda gərgin əmək sərf etmiş, bir-birinin ardınca yüksək səviyyəli elmi-tədqiqatlar apararaq həm pedaqogika elminə, həm də pedaqoji prosesə xidmət edəcək nəzəri və tətbiqi dərslik və dərs vəsaitləri hazırlamışdır. O, nəinki pedaqogika sahəsində, hətta fəlsəfə, məntiq, ritorika, etika, estetika, ana dilinin tədrisi istiqamətində də fundamental tədqiqatlar aparmış, müqayisə üsulunun bütün elmlərdə tətbiqinə aid konseptual ideyalar vermişdir.

Onun həyat və yaradıcı məramında fəzil keyfiyyətlərlə səsləşən nümunələri çox görüb, müşahidə etmişəm. Müəllim şəxsiyyətinə hörmət, ailə qüdsiyyətinə səmimi bağlılıq, vətəndaş-alim şərəfinə ağıl və zəka qüdrətindən baxmaq, fakt və hadisələrə sağlam mənəvi-psixoloji baxımdan yanaşma, həyat dolaylarından mətin və üzüağ çıxmaq kimi səy və bacarıqlara qadir olması munis keyfiyyətlər olaraq onu daim ucalmağa, yüksəlişə səfərbər etmişdir.

Elə bu fikirlərinin məntiqi davamı olaraq onun yaradıcı ömür yoluna çıraq tutmaq istəyirik.

Əməkdar elm xadimi, pedaqoji elmlər doktoru, professor Kazımov Nurəddin Mustafa oğlu 1926-cı il aprelin 28-də Gəncədə anadan olmuş, 1950-ci ildə Leninqrad Universitetini bitirmiş, 1957-1976-cı illərdə Azərbaycan DETPİ-də direktorun müavini və direktor; 1976-1982-ci illərdə APİ-də elmi işlər üzrə prorektor; 1982-ci ildən ADU-da pedaqogika kafedrasının müdiri vəzifələrində işləmişdir. O, 500-dən artıq əsərin müəllifidir. Ənənəvi pedaqogikanın başlıca kateqoriyaları və məfhumlarının mahiyyətinə dair anlayışlarına yenilik gətirən Nurəddin müəllim respublikamızın dövlət müstəqilliyi şəraitində yeni pedaqogika -milli pedaqogika yaratmışdır. O, 25 aspirant və dissertantın elmi rəhbəri olmuş, 30-dək doktorluq və namizədlik dissertasiyası üzrə rəsmi opponent, 90-a qədər dissertasiyanın rəyçisi olmuşdur. Nurəddin müəllim respublikamızın ictimai-siyasi həyatında fəal iştirak edir. O, uzun illər pedaqoji və psixoloji tədqiqatlar üzrə əlaqələndirmə şurasının üzvü və sədri, Təhsil Nazirliyində pedaqogika və psixologiya üzrə elmi-metodik şuranın sədri, pedaqogikanın nəzəriyyəsi və tarixi üzrə ixtisaslaşmış müdafiə şuralarının (AMİ) sədri olub. Onun dərslikləri, milli pedaqogika sahəsində nəzəri cəhətdən əsaslandırdığı ideyaları əməli şəkildə həyata keçirməyə üstünlük verdi. Nəticə olaraq o, iki istiqamətdə əməli iş aparıb. Milli pedaqogika ideyasının reallaşmasına imkan verən metodoloji prinsipləri konkretləşdirib və həmin prinsiplərə cavab verən dərsliklər hazırlayıb çap etdirib.

Nurəddin müəllimin ömür salnaməsinə qızıl hərflərlə yazılan nişanələrin böyük bir qismi 1984-cü ildən 2016-cı ilədək işlədiyi Azərbaycan Dillər Universitetinin pedaqogika kafedrası ilə bağlı olmuşdur. O, bu kafedraya rəhbərlik etdiyi dövrdə canla-başla, həvəslə və yüksək peşəkar fəaliyyət nümunəsi ilə bu vəzifənin öhdəsindən nəinki gəldi, hətta bütün ali pedaqoji tədris müəssisələrindəki pedaqogika kafedralarının fəaliyyətinə elmi istiqamət verən "Pedaqogika kafedrası üzrə təhsil proqramının" (Kurikulum) meydana çıxmasında müstəsna əmək sərf etdi. Respublikada milli-pedaqoji kadr hazırlığının səviyyəsinin və müasir elmi-tədqiqat təcrübəsinin intişarı üçün pedaqogika kafedralarının daha canlı təması, iş birliyini bir "ağsaqqal" kimi öz çiyinlərinə götürməklə, əsl fədakarlıq nümunəsi göstərib.

Heç şübhəsiz ki, respublikamız müstəqillik yolu ilə inkişaf etdiyi, təhsil sisteminin ümumbəşəri dəyərlər və milli zəmin üzərində qurulduğu bir şəraitdə öz zəngin iş təcrübəsinin ümidverici dəyərlərindən gənc nəslin maariflənməsi yolunda çox cəfakeş əmək sərf edən və pedaqogikanın elmi-nəzəri axtarışlarını bu gün də uğurla davam etdirən Nurəddin Kazımovun xidmətləri böyükdür. O, birmənalı olaraq öz doğma xalqının, onun milli-mənəvi dəyərlərinin sadiq qoruyucusu, bu yolda zəngin istedad və təcrübəsi olan əsl fədakar bir ömür sahibidir .

Qətiyyət və tam əminliklə demək olar ki, istedadlı pedaqoq, görkəmli alim, vətənpərvər insan, ən heyrətamiz mənəvi keyfiyyətləri özündə birləşdirən sadiqkeş dost, fitrətən azərbaycançılıq məfkurəsinə bağlı olan bu insan müəllimlik peşəsini daim uca tutmuş, yazıb-yaratmış, dərin mənalı əsərləri ilə vətənə və xalqına ləyaqətlə xidmət etmişdir.

**Vidadi BƏŞİROV,**
*ADU-nun pedaqogika kafedrasının dosenti, pedaqogika üzrə fəlsəfə doktoru*